## *Milli Aviasiya Akademiyasının rektoru akademik Arif Paşayevdən*



Hörmətli İsa Əkbər oğlu,

Sizi və Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) akademikləri, alimləri və əməkdaşlarını AMEA-nın yaranmasının 80 illik yubileyi münasibətilə təbrik edirəm.

AMEA-nın səksən illik fəaliyyəti Azərbaycan elminin inkişaf tarixində möhtəşəm bir dövrü əhatə edir. Bu illər ərzində AMEA ölkəmizin intellektual potensialının formalaşmasında, elmi məktəblərin yaradılmasında, fundamental və tətbiqi tədqiqatların aparılmasında mühüm rol oynamış, xalqımızın mədəni, iqtisadi və texnoloji tərəqqisinə sanballı töhfələr vermişdir.

Əminik ki, AMEA bundan sonra da gənc tədqiqatçıların yetişdirilməsi, innovasiyaların tətbiqi və beynəlxalq elmi əməkdaşlıqların genişləndirilməsi istiqamətində böyük uğurlara imza atacaq.

Sizə möhkəm cansağlığı, yeni yaradıcılıq nailiyyətləri və Azərbaycan elminin inkişafı naminə daha böyük uğurlar arzulayıram.

*Hörmətlə,*

**Rektor,**
**akademik Arif PAŞAYEV**
*3 noyabr 2025-ci il*

## *Gürcüstan Milli Elmlər Akademiyasının prezidenti akademik Roin Metrevelidən*



*Gürcüstan Milli Elmlər Akademiyasının prezidenti akademik Roin Metreveli Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyliyə minnətdarlıq məktubu göndərib:*

Əziz qardaşım!

Möhtəşəm qonaqpərvərlik üçün çox sağ ol!

Hər şey qeyri-adi dərəcədə çox yüksək səviyyədə təşkil olunmuşdu.

Biz müqayisə edilməyəcək dərəcədə çox razı qaldıq.

*Qardaşlıq sevgisi ilə*

***Roin METREVELİ***
***Gürcüstan Milli Elmlər Akademiyasının prezidenti, akademik***

*7 noyabr 2025-ci il*

## *Bolqarıstan Elmlər Akademiyasının prezidenti müxbir üzv Evelina Slavçevadan*



Hörmətli akademik İsa Həbibbəyli,

Bakıya səfərim zamanı Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi münasibətilə təşkil edilən tədbir çərçivəsində mənə göstərilən möhtəşəm qonaqpərvərliyə görə Sizə dərin təşəkkürümü bildirirəm. Bu mühüm yubileyi qeyd edən nəfis proqramın bir hissəsi olmaq və Sizin sevincinizi bölüşmək imkanım olduğuna görə çox şadam. Sizi əmin etmək istərdim ki, Bakıda keçirdiyim günlər son dərəcə xoş və yaddaqalan oldu. Eyni zamanda, səfərim müddətində məni qayğıkeşliklə müşayiət etdiyinə və Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunda səmimi qarşılamaya görə akademik İradə Hüseynovaya da təşəkkürümü bildirmək istərdim. Sonda, Azərbaycan Milli Elmlər Akademiyasının bütün əməkdaşlarını yubiley tədbirlərinin uğurla həyata keçirilməsi üçün göstərdikləri böyük əməyə və çalışqanlığa görə səmimi qəlbdən təbrik edirəm.

Bu, həqiqətən də möhtəşəm təcrübə idi və onun bir hissəsi olmaq üçün dəvətinizə görə bir daha Sizə minnətdarlığımı bildirirəm. Sizin Bolqarıstana, onun mədəniyyətinə və təbiət gözəlliklərinə verdiyiniz yüksək qiymət barədə öyrənmək mənim üçün çox xoş oldu. Öz növbəmdə, bu səfər mənim Azərbaycan, onun zəngin mədəni həyatı və möhtəşəm təbii gözəllikləri haqqında təəssüratlarımı daha da zənginləşdirdi.

Sizi əmin etmək istəyirəm ki, Siz və Azərbaycan Milli Elmlər Akademiyasının bütün üzvləri Bolqarıstan Elmlər Akademiyasının hər zaman dəyərli qonaqlarıdır.

*Dərin hörmətlə,*

**Evelina Slavçeva**
**Bolqarıstan Elmlər Akademiyasının prezidenti, müxbir üzv**
*11 noyabr 2025-ci il*

## *Qazaxıstan Milli Elmlər Akademiyasının akademiki Murat Jurinovdan*



*"D.V.Sokolski adına Yanacaq, Kataliz və Elektrokimya İnstitutu" Açıq Səhmdar Cəmiyyətinin baş direktoru, uzun illər Qazaxıstan Milli Elmlər Akademiyasının prezidenti olmuş akademik Murat Jurinov Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi münasibətilə AMEA-nın prezidenti akademik İsa Həbibbəyliyə təbrik məktubu ünvanlayıb.*

Məktubda deyilir:

"Hörmətli İsa Əkbər oğlu!

İnstitutun (D.V.Sokolski adına Yanacaq, Kataliz və Elektrokimya İnstitutu) alimləri adından və şəxsən öz adımdan Sizi və məşhur AMEA-nın bütün alimlərini Akademiyanın 80 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, Sizə hər sahədə xoşbəxtlik və firavanlıq arzulayıram! Azərbaycan Milli Elmlər Akademiyası həmişə akademik elmin avanqardında dayanmış, bütün qardaş türkdilli xalqların elmi dünyasının qüruru olmuşdur.

AMEA alimləri Azərbaycan elminin, sənayesinin, kənd təsərrüfatının, tibb sahəsinin və ümumilikdə ölkənin iqtisadi inkişafının inkişafına ölçüyəgəlməz töhfələr vermişlər. Alimlərimiz arasında dostluq və əməkdaşlıq ənənəsi öz başlanğıcını hələ 1926-cı ildə Bakıda keçirilmiş Birinci Türkologiya Qurultayından götürür. Türk dünyasının Milli Elm Akademiyalarının İttifaqı yaradılmış və onun birinci təşkilati iclası Sizin şəxsi iştirakınızla Astanada keçirilmişdir. Daha sonra biz Sizinlə birlikdə Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin iştirakı ilə Qazaxıstan Milli Elmlər Akademiyası ilə Azərbaycan Milli Elmlər Akademiyası arasında Əməkdaşlıq Sazişini imzalamışdıq.

Qoy qardaş ölkələrimizin alimləri arasında dostluq və əməkdaşlıq daha da möhkəmlənsin! Qoy AMEA Sizin müdrik rəhbərliyiniz altında daim çiçəklənsin!

*Dərin hörmət və ehtiramla,*

**Murat JURİNOV**
**akademik**
*5 noyabr 2025-ci il*

# Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik

## *Monteneqro Elmlər və İncəsənət Akademiyasının akademik-katibi, akademik Draqan Vukçeviçdən*



Əziz İsa müəllim,

Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş mərasimdə iştirakım zamanı mənə göstərdiyiniz möhtəşəm qonaqpərvərliyə görə Sizə təşəkkürümü bildirmək istəyirəm. Bakıda və Sizin Akademiyanızda özümü səmimi dostlar və xeyirxah insanlar arasında hiss etdim. Belə gözəl bir toplantının bir hissəsi olduğuma görə çox məmnunam. Bu mərasimin yüksək peşəkarlıqla təşkilinə görə Sizə ən dərin minnətdarlığımı ifadə etmək istəyirəm.

Sizdən bir xahişim də var - əməkdaşlarınızın Sizin seçilmiş bio-biblioqrafiyanızı mənə təqdim etmələrini rica edirəm. Əminəm ki, bizim müzakirə etdiyimiz layihələr gələn il həyata keçiriləcək.

Yeni görüşlərimizi səbirsizliklə gözləyirəm.

*Sizin,*
*Draqan*

**Draqan VUKÇEVİÇ**
**Monteneqro Elmlər və İncəsənət Akademiyasının akademik-katibi, akademik**
*12 noyabr 2025-ci il*

## *Rusiya Elmlər Akademiyasının müxbir üzvü Zahid Qocayevdən*



Çox hörmətli İsa müəllim!

İcazə verin Sizi və Azərbaycan Milli Elmlər Akademiyasının bütün kollektivini 80 illik yubiley münasibətilə təbrik edim.

Əminəm ki, son 80 ildə elmin inkişafında şanlı tarixə malik olan və müasir Azərbaycan dövlətinin qurulmasında mühüm rol oynayan AMEA, bundan sonra da respublikanın iqtisadiyyat, təhsil, sosial və humanitar sahələrində öz nüfuzunu və əhəmiyyətini qoruyacaq. Düşünürəm ki, müsbət obyektiv və subyektiv amillər sayəsində Azərbaycan elmi yaxın illərdə fundamental və tətbiqi tədqiqatlar sahəsində yeni nailiyyətlər əldə edəcək.

Bayramınız mübarək, yubileyiniz mübarək, əziz həmvətənlər və həmkarlar!

*Ən xoş arzularla,*

**Zahid QOCAYEV**
**texnika elmləri doktoru, professor,**
**Rusiya Elmlər Akademiyasının müxbir üzvü,**
**Moskva, Rusiya Federasiyası**
*5 nioyabr 2025-ci il*

## *Tatarıstan Respublikasının Azərbaycan Respublikasındakı Daimi Nümayəndəsi Murad Qadılşindən*



Hörmətli İsa müəllim!

Tatarıstan Respublikasının Azərbaycan Respublikasındakı Daimi Nümayəndəliyi adından və şəxsən öz adımdan sizi Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyi münasibətilə səmimi təbrik edirəm.

Bu yubiley təkcə Azərbaycan elminin tarixində deyil, bütün türk elmi məkanında əlamətdar bir mərhələdir. Səkkiz onillik ərzində Akademiya Azərbaycanın intellektual gücünün, mədəni dirçəlişinin və xalqın mənəvi birliyinin rəmzinə çevrilmişdir.

Xüsusilə qeyd etmək istərdim ki, cari ilin 3 noyabr tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Akademiyanın yubiley toplantısına etdiyi tarixi səfəri, onun elmi ictimaiyyətin nümayəndələri ilə görüşü və Akademiyanın ölkənin intellektual gələcəyinin formalaşmasında oynadığı mühüm rolu vurğulaması böyük əhəmiyyət kəsb edir.

Sizin rəhbərliyiniz altında Akademiya qurucularının şanlı ənənələrini inamla davam etdirir, elmin, təhsilin və mədəniyyətin inkişafına sanballı töhfələr verir, beynəlxalq əlaqələri möhkəmləndirir və əməkdaşlıq üçün yeni üfüqlər açır.

Tatarıstan Respublikası bizim elmi ictimaiyyətlər arasında uzun illərdir mövcud olan sıx və möhkəm əlaqələri yüksək qiymətləndirir. Tatarıstan və Azərbaycanın alimlərinin birgə təşəbbüsləri və layihələri dostluğun, qarşılıqlı anlaşmanın və ümumtürk həmrəyliyinin möhkəmlənməsinə xidmət edir.

Sizə və Azərbaycan Milli Elmlər Akademiyasının bütün kollektivinə möhkəm cansağlığı, tükənməz enerjiniz, elm naminə yeni nailiyyətlər və kəşflər arzulayıram! Azərbaycan elminin və dövlətinin tərəqqisi naminə fəaliyyətdə uğurlarınız davamlı olsun!

*Hörmətlə,*

**M.A.QADILŞİN**
**Tatarıstan Respublikasının Azərbaycan Respublikasındakı Daimi Nümayəndəsi**
*5 noyabr 2025-ci il*

## *YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyevdən*



Hörmətli Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli!

Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi münasibətilə Sizi və sizin simanızda bütün alimlərimizi, elm ictimaiyyətini səmimi qəlbdən təbrik edirik. Bu möhtəşəm yubiley yalnız Azərbaycan Milli Elmlər Akademiyasının deyil, bütövlükdə Azərbaycan elminin inkişaf tarixinin, zəngin intellektual potensialının və milli düşüncə mədəniyyətinin parlaq bayramıdır.

Azərbaycan Milli Elmlər Akademiyası ölkəmizin elmi-mədəni irsinin qorunmasında, inkişafında, cəmiyyətin intellektual səviyyəsinin yüksəldilməsində əvəzsiz rol oynamışdır. Azərbaycan Milli Elmlər Akademiyasının fəaliyyəti nəticəsində Azərbaycan elmi dünya elmi məkanında layiqli yerini tutmuş, bir çox fundamental və tətbiqi tədqiqatlar beynəlxalq elmi ictimaiyyətin diqqətini cəlb etmişdir.

Bu gün Akademiya Ümummilli Lider Heydər Əliyevin elm siyasətinin və Prezident cənab İlham Əliyevin elmə, təhsilə və innovasiyalara verdiyi böyük diqqətin real bəhrələrini nümayiş etdirir. Azərbaycan Milli Elmlər Akademiyası təkcə elmi biliklərin mərkəzi deyil, həm də milli kimliyimizin, müstəqil dövlətçilik düşüncəmizin, gənc nəsillərin elmə marağının formalaşdığı müqəddəs bir ocaqdır. Sizin rəhbərliyiniz altında həyata keçirilən islahatlar, elmin idarə olunmasında müasir yanaşmalar, innovativ ideyaların təşviqi və gənc alimlərin dəstəklənməsi Akademiyanın inkişafında yeni bir mərhələnin əsasını qoymuşdur.

Bu əlamətdar yubiley münasibətilə sizə möhkəm cansağlığı, yeni elmi nailiyyətlər, Azərbaycan elminin daha da yüksəlişi naminə uğurlu fəaliyyət arzulayırıq. Əminik ki, sizin dərin elmi biliyiniz, yüksək təşkilatçılıq bacarığınız və vətənpərvər mövqeyiniz sayəsində Azərbaycan Milli Elmlər Akademiyası bundan sonra da milli elmin aparıcı mərkəzi kimi ölkəmizin inkişafına dəyərli töhfələr verməyə davam edəcəkdir.

*Ən xoş arzularla,*

**Bəxtiyar NƏBİYEV**
**Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatının sədri**
*4 noyabr 2025-ci il*

## *Ankara Universitetinin rektoru professor Necdet Ünüvardan*



Hörmətli prof. Dr. İsa Həbibbəyli

Elmi tədqiqatların aparılması və dövlətimizin beyin mərkəzi Ankara Universiteti olaraq, 3-6 noyabr 2025-ci il tarixlərində Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi münasibətilə olduğumuz Bakı şəhərində göstərdiyiniz nəzakətə və diqqətə görə təşəkkür edir, fəaliyyətinizdə uğurlar arzulayıram.

80 illiyiniz mübarək olsun!

**Prof. Dr. Necdet ÜNÜVAR**
**Rektor**
*10 noyabr 2025-ci il*

## *Azərbaycan Respublikası Prezidentinin iqlim məsələləri üzrə köməkçisi Muxtar Babayevdən*



Hörmətli İsa müəllim,

Sizi və rəhbərlik etdiyiniz kollektivi Azərbaycan Milli Elmlər Akademiyasının yaradılmasının 80 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edir, ən xoş diləklərimi bildirirəm.

Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan elminin inkişafı və onun dövlət idarəçiliyi, iqtisadiyyat və ictimai həyatla sıx inteqrasiyası üçün möhkəm zəmin yaradılmışdır. Bu gün həmin ənənə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir, ölkəmizdə elmi tədqiqatların stimullaşdırılması, innovasiyaların tətbiqi və elmin strateji sahə kimi inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.

Azərbaycan Milli Elmlər Akademiyası ötən dövr ərzində ölkəmizin elmi potensialının formalaşmasında, fundamental və tətbiqi tədqiqatların aparılmasında, eləcə də innovativ biliklərin cəmiyyətin inkişafına inteqrasiyasında mühüm rol oynamışdır. Akademiyanın alimləri və ekspertləri bu gün də qlobal iqlim çağırışlarının elmi əsaslarının araşdırılması davamlı inkişaf strategiyalarının hazırlanması istiqamətində dəyərli töhfələr verməkdədirlər.

Azərbaycan Milli Elmlər Akademiyasının COP29 prosesinə verdiyi elmi dəstək, o cümlədən iqlim dəyişikliyinin təsirlərinin öyrənilməsi, dayanıqlı texnologiyaların təşviqi və ekoloji maarifləndirmə istiqamətində apardığı işlər ölkəmizin beynəlxalq səviyyədə etibarlı tərəfdaş kimi mövqelərinin möhkəmlənməsinə xidmət etmişdir.

Hörmətli İsa müəllim,

Bu əlamətdar yubiley münasibətilə Sizə və rəhbərlik etdiyiniz kollektivə möhkəm cansağlığı, elmi yaradıcılıqda uğurlar, yeni nailiyyətlər və Azərbaycan elminin dünya elmi birliyində nüfuzunun daha da artması arzularımı bildirirəm.

*Dərin hörmət və ehtiramla,*

**Muxtar BABAYEV**
*5 noyabr 2025-ci il*

## *Milli Məclisin komitə sədri Fazil Mustafadan*



Hörmətli İsa müəllim,

Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi münasibətilə Sizi və rəhbərlik etdiyiniz kollektivi, bütün elmi ictimaiyyətimizi səmimi-qəlbdən təbrik edirəm!

Bu yubiley, eyni zamanda, Azərbaycan elminin dövlətçilik düşüncəsi ilə qovuşmasının, müstəqil milli ideologiyamızın intellektual dayaqlarının möhkəmlənməsinin rəmzidir.

Dövlət strategiyası ilə intellektual potensialın birliyini təmin edən yeni yanaşmalar milli elmi məktəbin çağdaş dönəmə uyğun inkişafına güclü təkan verməkdədir və bu, Prezident İlham Əliyevin elmin inkişafına göstərdiyi diqqət və qayğının, "Azərbaycan - 2030" strateji baxışına uyğun milli tərəqqi modelinin təzahürüdür.

Bu əlamətdar yubiley xalqımızın birliyini, dövlətimizin gücünü və mənəvi dirçəlişini simvolizə edən ardıcıl bayramlar ilə eyni vaxta düşür. Qarşıdan gələn 8 Noyabr - Zəfər Günü, 9 Noyabr - Dövlət Bayrağı Günü ve 12 Noyabr - Konstitusiya Günü münasibətilə də Sizi, AMEA-nın bütün əməkdaşlarını, elm ictimaiyyətimizi təbrik edir, Vətənimizin tərəqqisi, dövlətimizin qüdrəti naminə yeni yaradıcılıq uğurları arzulayıram!

*Hörmətlə,*

**Fazil MUSTAFA**
**Komitə sədri**
*5 noyabr 2025-ci il*

# yubileyi münasibətilə təbrik və minnətdarlıq məktubları

## *Milli Məclisin komitə sədri Hicran Hüseynovadan*



Hörmətli İsa müəllim,

Sizi Azərbaycan Milli Elmlər Akademiyasının yaranmasının 80 illiyi və Zəfər Bayramının 5-ci ildönümü münasibətilə təbrik edirəm.

Azərbaycan Milli Elmlər Akademiyası yarandığı vaxtdan etibarən nailiyyətlərlə zəngin bir yol keçmiş, respublikanın elmi-intellektual potensialını milli sərvətə çevirən mərkəz kimi tanınmışdır. Müstəqil Azərbaycan Respublikasında əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş təhsil və elmə dövlət qayğısı siyasəti bu gün möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının rəhbərliyi altında uğurla davam etdirilir.

Akademiyanın ötən müddət ərzindəki səmərəli fəaliyyətinin əsasında elmin zamanın tələblərinə uyğun prioritet problemlərinin araşdırılması, ən müxtəlif elmi istiqamətlər üzrə yüksək hazırlıqlı kadrların yetişdirilməsi, elmi məktəblərin formalaşdırılması və nüfuzlu beynəlxalq elm qurumları ilə qarşılıqlı əlaqələrin genişləndirilməsi prinsipləri dayanmışdır. Bu gün də Akademiya elm sahəsində dövlət siyasətinin uğurla həyata keçirilməsində fəal iştirak edir, sosial-humanitar tədqiqatlarla cəmiyyətin yeni biliklərə yiyələnməsi və elmi-mədəni səviyyəsinin yüksəldilməsi işinə töhfələr verir.

Hörmətli İsa müəllim,

Sizi və çoxsaylı kollektivinizi bir daha bu əlamətdar tarixi günlər münasibətilə təbrik edir, möhkəm cansağlığı, gələcək elmi fəaliyyətlərinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**Hicran HÜSEYNOVA**
**Komitə sədri**
*4 noyabr 2025-ci il*

## *Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənovdan*



Hörmətli İsa müəllim,

Sizi və rəhbərlik etdiyiniz kollektivi Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) 80 illik yubileyi münasibəti ilə səmimi-qəlbdən təbrik edirik.

Yarandığı gündən ötən illər ərzində ölkəmizin elmi-intellektual inkişafının lokomotivinə çevrilən AMEA bu gün də elmi düşüncənin, milli ideologiyanın və ictimai tərəqqinin formalaşmasında müstəsna rol oynayır. Akademiya təkcə elmi araşdırmaların aparıldığı bir müəssisə kimi deyil, həm də milli dəyərlərin, mənəvi irsin, dil və mədəniyyətin qorunub saxlanıldığı və təbliğ olunduğu strateji bir elm ocağı kimi fəaliyyət göstərir.

Hörmətli İsa müəllim,

Bu əlamətdar yubiley münasibətilə Azərbaycan Milli Elmlər Akademiyasının bütün üzvlərinə və əməkdaşlarına möhkəm cansağlığı, elmi fəaliyyətlərində yeni nailiyyətlər və Azərbaycan elminin inkişafında yaradıcılıq uğurları arzulayırıq.

*Dərin hörmətlə,*

**Rəvan HƏSƏNOV**
*3 noyabr 2025-ci il*

## *Milli Məclisin deputatı Şahin Seyidzadədən*



Hörmətli İsa müəllim,

Sizi Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Azərbaycan Milli Elmlər Akademiyası yarandığı gündən etibarən ölkəmizin elmi-intellektual inkişafında mühüm rol oynamış, elmin müxtəlif sahələrində böyük nailiyyətlər qazanmışdır.

Cənab Prezident İlham Əliyevin yubiley mərasimində iştirakı və söylədiyi dərin məzmunlu çıxış bir daha təsdiqlədi ki, dövlət rəhbərliyi Azərbaycan elminin inkişafına böyük önəm verir, alimlərin zəhmətinə yüksək dəyər verir.

Sizi bu əlamətdar yubiley münasibətilə bir daha təbrik edir, Azərbaycan elminin tərəqqisi naminə gördüyünüz işlərdə yeni uğurlar arzulayıram.

*Hörmətlə,*

**Şahin SEYİDZADƏ**
*6 noyabr 2025-ci il*

## *İslam Sivilizasiyası Mərkəzinin direktoru Firdavs Abduxalikovdan*



Hörmətli Həbibbəyli İsa Əkbər oğlu!

Özbəkistandakı İslam Sivilizasiyası Mərkəzi adından və şəxsən öz adımdan, Daşkənddə keçirilmiş "Mərkəzi Asiya: ümumi mənəvi-maarifçi irs - ümumi gələcək" Beynəlxalq Konqresində iştirakınıza görə Sizə dərin minnətdarlığımı bildirirəm.

Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin konqres iştirakçılarına müraciəti Mərkəzi Asiya ideyasını qardaşlıq, elm və mədəni birlik məkanı kimi xüsusi vurğulayıb. Biz bu ideyaların Azərbaycan Respublikasının humanitar siyasəti ilə və Sizin birgə təşəbbüsləri inkişaf etdirmək səylərinizlə dərin həmahəngliyini yüksək qiymətləndiririk.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Mərkəzi Asiya ölkələri ilə Azərbaycan arasında əməkdaşlığın gücləndirilməsinə yönəlmiş regional təşəbbüslərdə iştirakını xüsusi qeyd etmək vacibdir.

Onun qarşılıqlı mədəni-humanitar fəaliyyətə ardıcıl dəstəyi, ümumi etimad məkanının formalaşdırılmasına sadiqliyi, elm, təhsil və mədəniyyət sahələrində tərəfdaşlığı genişləndirmək istəyi dövlət başçılarının məşvərət görüşünün işinə xüsusi əhəmiyyət qatır.

Azərbaycan Respublikasının Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət Görüşündə tamhüquqlu iştirakı haqqında qərarın qəbul edilməsi xüsusi simvolik əhəmiyyət daşıyır. Bu tarixi addım strateji etimadı, ümumi mədəni kökləri və Azərbaycanın regionun humanitar və elmi-tədqiqat gündəliyində ən vacib tərəfdaş kimi artan rolunu vurğulayır.

Sizin elmi, mədəni, akademik və peşəkar töhfəniz konqresin ümumi uğurunun əhəmiyyətli bir hissəsi oldu. Biz Azərbaycan nümayəndə heyətinin fəal iştirakını, ekspertlərin məzmunlu çıxışlarını, elmi, yaradıcı və media strukturlarının nümayəndələrinin iştirakını, eləcə də qardaş ölkələrimiz arasında əməkdaşlığın dərinləşdirilməsinə şəxsi marağınızı yüksək qiymətləndiririk.

Əziz Həbibbəyli İsa Əkbər oğlu!

Konqresin işində səmimi iştirakınıza görə Sizə təşəkkür edirəm. Əminəm ki, əməkdaşlığımız birgə tədqiqat layihələri, arxeologiya, əlyazmalar, muzey fəaliyyəti, media proqramları, mədəni mübadilələr və təhsil təşəbbüsləri çərçivəsində davam edəcək.

İslam Sivilizasiyası Mərkəzi qarşılıqlı fəaliyyət və perspektivli ideyalara dəstək üçün hər zaman açıqdır. Mərkəzin ikinci mərtəbəsində, Azərbaycan-Özbəkistan elmi və mədəni layihələrinin reallaşdırılması üçün iş sahəsi təmin etməyə hazır olduğumuz Beynəlxalq Platforma yaradılıb.

Əlavə olaraq, görüşlərimizin, məzmunlu müzakirələrimizin və bu əlamətdar günlərdə bütün iştirakçıları birləşdirən dostluq və peşəkar birlik atmosferinin isti xatirəsi kimi konqresdən bir neçə fotoşəkil göndəririk.

Sizə möhkəm cansağlığı, yeni nailiyyətlər və ilham arzulayıram!

Hörmətlə,

**Firdavs ABDUXALİKOV**
**İslam Sivilizasiyası Mərkəzinin direktoru**
*18 noyabr 2025-ci il*

## *Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri Famil Mustafayevdən*



Çox hörmətli İsa müəllim,

Sizi və rəhbərlik etdiyiniz Azərbaycan Milli Elmlər Akademiyasının əməkdaşlarını Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının kollektivi və şəxsən öz adımdan Akademiyanın 80 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, müstəqil dövlətimizdə elmin inkişafına, elmi-texniki tərəqqinin yüksəlişinə layiqincə xidmət edən bu elm məbədinin alim və tədqiqatçılarına elmi fəaliyyətlərində böyük uğurlar və yeni nailiyyətlər arzulayıram.

Azərbaycan Milli Elmlər Akademiyası ölkəmizdə elmin təşkilatlanmasında, müxtəlif elm sahələri üzrə peşəkar mütəxəssislər və tədqiqatçılar ordusunun, ali məktəblərin elmi kadr potensialının formalaşmasında və irihəcmli elmi tədqiqatların akademik səviyyədə aparılmasında mühüm rol oynayır.

Azərbaycanda elmin inkişafına xüsusi diqqət və qayğı ilə yanaşan Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə fəaliyyətinin intibah dövrünü yaşamış Elmlər Akademiyası ölkəmizdə milli təfəkkürün, müstəqil dövlətçilik ideyalarının formalaşmasında, azərbaycançılıq məfkurəsinin yaranması və təbliğində, milli-mənəvi dəyərlərin elmi əsaslarının işlənib hazırlanmasında müstəsna rol oynamış, cəmiyyətdə milli istiqlal ruhunun oyanışına təkan vermişdir. Həmin illərdə Azərbaycanda formalaşan və inkişaf edən bir çox elmi məktəblər, fundamental və humanitar elm sahələrində geniş vüsət alan irimiqyaslı tədqiqatlar, alimlərimizin dünya elmini zənginləşdirən araşdırmaları Akademiyanın gələcək inkişafına möhkəm zəmin yaratmışdır.

Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra bu sahədə aparılmış köklü islahatlar və atılmış ciddi addımlar nəticəsində Akademiyanın fəaliyyəti ölkənin inkişaf strategiyasının prinsiplərinə uyğun olaraq yenidən qurulmuş, xalqımızın Ümummilli lideri Heydər Əliyevin 2003-cü ildə təsdiq etdiyi Nizamnamə ilə Azərbaycan Elmlər Akademiyasına milli status verilmişdir.

Ölkə Prezidenti cənab İlham Əliyevin 2023-cü ildə təsdiq etdiyi yeni Nizamnamə dövlət müstəqilliyinin müasir mərhələsinin tələblərinə cavab verən, Azərbaycanın hərtərəfli inkişafına istiqamətlənən genişmiqyaslı tədqiqatların aparılmasını, elmi fəaliyyətin müasir çağırışlara uyğun təşkilini, dünya elminə davamlı inteqrasiyanı təmin etməyə şərait yaradır. Uğurla keçdiyi böyük inkişaf yolunda zəngin təcrübə toplamış, fəaliyyətini ölkə Prezidentinin təsdiq etdiyi İnkişaf Strategiyasından və müəyyən etdiyi Milli Prioritetlərdən irəli gələn vəzifələrə uyğun olaraq yenidən qurmuş Elmlər Akademiyası bu gün müstəqil Azərbaycanın dövlətçilik mənafeyinə və xalqımızın milli maraqlarına xidmət edən, Azərbaycan elminin ənənələrini yaşatmaq və inkişaf etdirməklə yanaşı, dünya elminə dəyərli töhfələr verən elm məbədidir.

Fəaliyyət göstərdiyi 80 il ərzində Elmlər Akademiyası müxtəlif elm sahələri üzrə böyük alimlər ordusu yetişdirmiş, ölkəmizin elmi kadr potensialını istedadlı tədqiqatçılarla zənginləşdirmiş, elmi müəssisə və təşkilatları, ali təhsil ocaqlarını peşəkar və təcrübəli mütəxəssislərlə təmin etmişdir. Hazırda Akademiyanın tabeliyində olan elmi-tədqiqat institutlarında Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən müxtəlif elm sahələri üzrə yaradılmış çoxsaylı dissertasiya şuralarında tədqiqatçılar fəlsəfə doktoru və elmlər doktoru dissertasiyalarını uğurla müdafiə edir, elmi dərəcə və elmi adlara layiq görülürlər. Bu, Akademiyanın yeni reallığa qədəm qoymuş ölkəmizdə yüksəkixtisaslı elmi kadrların, gənc alim və tədqiqatçıların hazırlanmasına, elmi biliklərlə zənginləşmiş insan kapitalının formalaşmasına verilən töhvədir.

Əminik ki, Akademiyanın elmi kollektivi Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin "Ölkəmizin gələcəyi elmi potensialın səviyyəsi ilə bilavasitə bağlıdır" fikrini rəhbər tutaraq, gələcəkdə də dövlətimizin elmi potensialının səviyyəsini daim yüksəltməyə xidmət edəcəkdir.

Hörmətli İsa müəllim, Sizi və həmkarlarınızı, Milli Elmlər Akademiyasının həqiqi və müxbir üzvlərini, görkəmli alimlərimizi Azərbaycanın ən böyük elm məbədinin yubileyi münasibətilə bir daha səmimi-qəlbdən təbrik edir, həyatı və fəaliyyəti Akademiya ilə bağlı olan hər bir elm adamına möhkəm cansağlığı, tükənməz enerji, ölkəmizdə elmin davamlı inkişafı və elmi-texniki tərəqqinin sürətlənməsi naminə şərəfli fəaliyyətlərində böyük uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

**Famil MUSTAFAYEV**
**Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının sədri**
*31 oktyabr 2025-ci il*